KPMG Azerbaijan

Tax and Legal Services

# Legislative Update Newsletter

May 2016



## In this issue:

- Ongoing reforms in privatization legislation
- Amendments to antimonopoly legislation
- Amendments to the Tax Code
- Amendments to single budget classification of the Republic of Azerbaijan
- Ongoing reforms in customs affairs
- New regulations governing admission to, recovery and termination of citizenship of the Republic of Azerbaijan
- Judgment of the Constitutional Court on several provisions of the Civil Code

## Ongoing reforms in privatization legislation

Adopted as of 19 May 2016, Presidential Decree sets the framework for adoption of the Bill "*On Privatization of State Property*" within 2 month following its enactment thereof.

Following the effective date of the Decree, provisions of existing privatization laws shall cease to apply. As such, the privatization of state property via "*II Programme of state privatisation in the Republic of Azerbaijan*" are suspended

Following this, all the privatization decisions in the absence of signed *sale-purchase agreements* prior to the enactment of this Decree shall be rescinded.

Decree authorizes President of the Republic of Azerbaijan to adopt state privatization decisions.

According to the Decree, the State Committee on Property Issues of the Republic of Azerbaijan shall determine list of state-owned assets to be privatized on a yearly basis along with state budget Bill for consecutive financial year to the President.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

The Committee shall also provide list of assets to be privatized in the current year within 1 (one) month following the effective date of the Decree.

Decree is effective as of 20 May 2016.

## Amendments to antimonopoly legislation

The amendments introduced the concept of cartel agreements. A cartel agreement shall be understood as *"a voluntary combination of two or more financially and legally independent businesses competing in the same market to exclude others or prevent new competitors from entering the market by dividing territories, sales volumes, types of goods or customers, or by refusing to purchase or sell goods (services)". Increasing or decreasing prices, maintaining prices at the same level, implementing privileges, rebates or bonuses, or other methods of restraining competition are also included in the definition of a cartel agreement.*

By virtue of these amendments, any above-mentioned prohibited agreements concluded by independent entities shall be qualified as cartel agreements. Prior to the amendments all such agreements were required to be concluded by dominant market players.

Respective amendments were also incorporated into the Criminal Code of the Republic of Azerbaijan. Therefore, pursuant to amended Article 199 of the Code, the penalty for entering into cartel agreements depends on the inflicted damage, which can be imprisonment of up to 12 years and/or the fine in the amount of the obtained profit in a fourfold ratio. The abovementioned amendments are effective from 3 May 2016.

*Another amendments in antimonopoly legislation approve* the Charter and structure of the State Service for Antimonopoly Policy and Consumer Protection under the Ministry of Economy. Therefore, now the Service employs 147 people in division and 52 people in regional divisions, with total number of 199 employees. According to the new Regulations, now the Service operates as an executive authority exercising public policy and state control in the following areas: antimonopoly (competition), public procurement, advertising and protection of consumer rights.  The Decree also envisages adoption of the new Law "*On State Procurement*".

Decree is effective as of 4 May 2016.

## Amendments to the Tax Code

According to Presidential Decree dated 17 May 2016, which promulgates amendments to the Tax Code exempts foreign trucks from road tax for the period of 3 (three) years in the following situations:

- The cargos carried to another country through their nearest customs checkpoint and the last railway station of the Republic of Azerbaijan.

- The cargos carried from foreign countries to the first railway station in Azerbaijan through the nearest customs checkpoint.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

By virtue of another amendment residents engaged in shipbuilding at Garadagh Industrial Park possessing a valid import authorization document are exempted from VAT for a period of 5 years.

The residents will also bear payment of VAT at zero (0) rate to contractors for provision of goods and / or services for a period of 5 years.

As per amendments, land tax incurred upon agricultural land are classified as state taxes. In addition, import and sale of the following products are also exempt from VAT:

- *import and sale of pedigree animals, import and sale of seeds and seedlings, import of fertilizers, pesticides, seed breeding, laboratory equipment, import and sale of machines for cleaning, sorting or for calibrating seed, grain and dry legumes,*
- *import and sale of veterinary chemicals for preventive care, diagnostics and treatment of farm livestock, import and sale of agricultural irrigation and other equipment, machines, devices and facilities.*

## Amendments to single budget classification of the Republic of Azerbaijan

According to the Resolution No. 181 of Cabinet of Ministers dated 3 May 2016, the budget revenue is generated from simplified taxes paid by legal entities engaged in construction, sports gambling, trading and public catering activities.

Resolution is effective as of 7 May 2016.

## Ongoing reforms in customs field

The 21 May 2016 *Rules of Using `Green Corridor` and Other Gate Systems for the Transportation of Goods and Vehicles across the Customs Border (the "Rules")* implement the Presidential Decree of 4 March 2016 on simplifying the practice of customs clearance.

These Rules specify import requirements for the goods under pre-determined risk parameters. Subsequently, *green, blue, yellow and red corridors* have been defined for the gate system of goods in accordance with the risk levels applied in customs system.

According to the Rules, in order to use the gating systems, individuals shall submit a *short import declaration* to customs authorities for e-registration at least an hour before the import occurs. This will in turn result in allocation of the goods by the risk corridors by customs authorities following the analysis of information contained in such *declaration*.

When exporting goods *via green corridor*, such goods and vehicles will not be subject to regulatory check (*except for cases posing threat to economic interests of state*). Goods imported through other corridors, such as *blue, yellow and red corridors,* shall be subject to customs check as set forth by the law.

In addition, individuals importing goods under defined risk groups are also divided into *low, medium and high* risks groups.

The Rules establish that individuals conducting export activities once in three years until 22 May 2016 shall be classified as a *low risk group*, and those conducting no export operations during such period shall be classified in *high risk group*.

Rules are effective as of 22 May 2016.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

## New Regulations governing admission to, restoration recovery and termination of citizenship of the Republic of Azerbaijan

According to the Presidential Decree dated 20 May 2016, from now all applications for admission to, recovery and termination of citizenship of the Republic of Azerbaijan shall be submitted to the *State Migration Service, State Security Service and Foreign Intelligence Office and the Ministry of Internal Affairs*, accordingly. State Migration Service shall submit the information collected from such authorities to the Administration of the President of the Republic of Azerbaijan.

The Decree stipulates the following grounds for suspension of the citizenship of the Republic of Azerbaijan:

- *voluntary adoption of another state's citizenship by the citizen of the Republic of Azerbaijan*
- *voluntary service at foreign state or municipal bodies, or forced arms and other armed groups*
- *engagement in terrorism activities*
- *engagement in religious extremist activities*
- *deliberate fasification of necessary information for being admitted to citizenship* of the Republic of Azerbaijan.

State Migration Service shall initiate court proceedings on suspension of citizenship if one of the abovementioned conditions is met. To this end, the State Migration Service shall investigate whether such individuals have *unfulfilled obligations to the state or property liabilities regarding the interests of legal entities and individuals in Azerbaijan* within one month, and apply to the court.

Pursuant to the Decree, Azerbaijani citizens adopting the citizenship of any foreign state shall submit relevant written information to the State Migration Service *(for citizens residing in the Republic of Azerbaijan)* and the Ministry of Foreign Affairs *(for citizens residing abroad*) through diplomatic misisons or consulates in Azerbaijan via e-mail or personally within one month.

The Decree also defines the application form to recover *citizenship* of the Republic of Azerbaijan.

Decree is effective as of 22 May 2016.

## Judgment of the Constitutional Court on several provisions of the Civil Code

The Resolution of the Plenum of Constitutional Court of Azerbaijan dated 29 March 2016 provides interpretation towards the *right to use integral part of residential building* stipulated in Article 228.5 of the Civil Code was interpreted. Pursuant to the Article, the owner of integral part of residential building and his/her family members (spouses, parents, children), residing together with him/her shall possess the equal right to use the living space. Furthermore, the right to use residential building vested by the owner's family members shall be preserved even in case of divorce.

Based on the above, the Court clarified the termination of rights to use residential building of family members and other individuals by the owner without any compensation in cases when they do not use the integral part of residential building.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

Under Article 262.2 of the Civil Code, the Court determined the possibility of terminating rights to use integral part of residential building of family members and other individuals without any compensation, when their need for such residential building is eliminated (for example, voluntary relocation to other permanent residential building; gaining an ownership of a house or other residential building; relocation to the house of husband/wife upon marriage, etc.).

Pursuant to the Resolution, a mere failure not to utilize the right to use integral part of residential building shall not directly lead to termination of such right. Only *voluntary long-term and continuous failure* to use this right may form a ground for terminating such rights.

Resolution is effective as of 20 April 2016.

**Contacts:**

**Vugar Aliyev**
Managing Partner

**Mushfig Aliyev**
Director,
Head of Tax and Legal Department

**Farid Isayev**
Senior Manager,
Head of Legal Services

**KPMG Azerbaijan Limited**
Port Baku, 12th floor
153, Neftchilar Avenue
AZ1010, Baku, Azerbaijan
Tel +99412 404 8910/ 11
Fax +99412 404 8914
**www.kpmg.az**

*The information contained herein is of a general nature and is not intended to address the circumstances of any particular individual or entity. Although we endeavor to provide accurate and timely information, there can be no guarantee that such information is accurate as of the date it is received or that it will continue to be accurate in the future. No one should act on such information without appropriate professional advice after a thorough examination of the specific situation.*

*© 2016 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of the Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan, a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative ("KPMG International"), a Swiss entity. All rights reserved.*

# Qanunvericiliyə dair Yeniliklərin İcmalı

**May 2016-cı il**



## Cari buraxılışda:

- **Dövlət əmlakının özəlləşdirilməsi sahəsində qanunvericilik təkmilləşdirilir**
- **Antiinhisar qanunvericiliyində bir sıra dəyişikliklər edildi**
- **Vergi Məcəlləsində dəyişikliklər edildi**
- **Azərbaycan Respublikasının vahid büdcə təsnifatına dəyişikliklər edildi**
- **Gömrük sahəsində islahatlar davam edir**
- **Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və xitam ilə bağlı qaydalar müəyyənləşdirildi**
- **Konstitusiya Məhkəməsi Mülki Məcəllənin bir sıra maddələrini şərh etdi**

## Dövlət əmlakının özəlləşdirilməsi sahəsində qanunvericilik təkmilləşdirilir

AR Prezidentinin 19 may 2016-cı il tarixli Fərmanı ilə dövlət əmlakının özəlləşdirilməsinin yeni meyarlarını və prinsiplərini nəzərdə tutan Qanun layihəsinin fərmanın imzalandığı tarixdən etibarən 2 ay müddətində hazırlanması nəzərdə tutulub.

Buna müvafiq olaraq, fərmanın qüvvəyə mindiyi gündən etibarən özəlləşdirmə sahəsində mövcud qanunvericiliyin müddəalarının qüvvədən düşməsi nəzərdə tutulub. Belə ki, dövlət əmlakının "*Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı*"na uyğun olaraq özəlləşdirilməsi dayandırılır.

Bununla həm də barəsində özəlləşdirmə qərarı qəbul edilməsinə baxmayaraq (*özəlləşdirmə əqdi bağlanan əmlak istisna olmaqla*) həmin əmlakın özəlləşdirilməsi mümkün olmayacaqdır.

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

Fərmana əsasən, dövlət əmlakının özəlləşdirilməsi AR Prezidenti tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi hər il özəlləşdirilməsi nəzərdə tutulan dövlət əmlakının siyahısını növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ilə birlikdə AR Prezidentinə təqdim etməlidir. Komitə eyni zamanda cari ildə özəlləşdirilməsi nəzərdə tutulan dövlət əmlakının siyahısının fərmanın imzalandığı tarixdən etibarən 1 ay ərzində müəyyən edərək AR Prezidentinə təqdim edəcəkdir.

Fərman 20 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## Antiinhisar qanunvericiliyində bir sıra dəyişikliklər edildi

Qanunda edilmiş dəyişikliklərə əsasən kartel sövdələşməsinin anlayışı verilmişdir. Bununla, kartel sövdələşməsi dedikdə "*eyni əmtəə (xidmət) bazarında rəqabət aparan, maliyyə və hüquqi baxımdan müstəqil olan iki və ya daha çox təsərrüfat subyektlərinin digər rəqibləri bazardan kənarlaşdırmaq və (və ya) yeni rəqiblərin bazara daxil olmasının qarşısını almaq məqsədilə bazarın ərazi prinsipinə, alğı satqının həcminə, malların çeşidinə və ya müştərilərə (sifarişçilərə) görə bölüşdürülməsi, malların (xidmətlərin) alınmasından və ya satılmasından imtina edilməsi, qiymətlərin (tariflərin) yüksəldilməsi, azaldılması və ya bir səviyyədə saxlanılması, malların satışına və ya xidmətlərin göstərilməsinə güzəştlərin, endirimlərin və əlavələrin müəyyən edilməsi, yaxud rəqabəti məhdudlaşdıran digər vasitələrin tətbiqi barədə hər hansı bir formada könüllü sövdələşməsi" başa düşülür.*

Dəyişikliklərin məzmunundan göründüyü kimi, kartel sövdələşməsi artıq bazarda hökmran olan subyektlərin deyil, hər hansı müstəqil təsərrüfat subyektlərinin qadağan olunmuş sazişlərə daxil olmasını əhatə edir.

Dəyişiklərlə əlaqədar müddəalar eyni zamanda AR Cinayət Məcəlləsinə də daxil edilmişdir. Belə ki, Məcəllənin 199-cu maddəsini edilmiş dəyişiklərə əsasən kartel sövdələşməsinə daxil olan təsərrüfat subyektlərinə tətbiq edilən cəzanın miqdarı vurulmuş ziyanın həddindən asılı olmaqla 12 ilədək azadlıqdan məhrumetmə və/və ya əldə olunmuş gəlirin 4 misli miqdarında cərimə ilə nəticələnə bilər. Sözügedən dəyişikliklər 3 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib

*Antiinhisar qanunvericiliyindəki digər dəyişikliklə isə* AR Prezidenti tərəfindən imzalanmış Fərmanla İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin strukturu və yeni Əsasnaməsi təsdiq olunmuşdur. Belə ki, Xidmətin işçilərinin say həddi 199 ştat vahidi olmaqla aparat üzrə 147 ştat vahidi, regional bölmələr üzrə 52 ştat vahidi müəyyən edilib. Əsasnamədə Xidmət *antiinhisar (rəqabət), dövlət satınalmaları, reklam və istehlakçıların hüquqlarının müdafiəsi sahələrində dövlət siyasəti və dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanı* kimi müəyyənəşdirilmişdir.

Eyni zamanda, Fərmana əsasən, "*Dövlət satınalmaları haqqında*" yeni qanun layihəsinin hazırlanması nəzərdə tutulmuşdur.

Fərman 4 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

## Vergi Məcəlləsində dəyişikliklər edildi

AR Prezidentinin 17 may 2016-cı il tarixli Fərmanı ilə Vergilər Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, xarici ölkələrin yük avtomobil daşıyıcıları yüklərin nəqli zamanı aşağıdakı hallarda yol vergisini 3 il müddətinə ödəməkdən azad edildi:

- *Yüklər Azərbaycan Respublikası ərazisindəki son dəmir yolu stansiyasından keçirilərək digər dövlətin ən yaxın gömrük sərhəd buraxılış məntəqəsinə daşındıqda;*
- *Yüklər xarici ölkənin ərazisindən daşındığı zaman Azərbaycan Respublikasının ilk dəmir yolu stansiyasına ən yaxın gömrük sərhəd buraxılış məntəqəsindən keçirildikdə.*

Digər dəyişikliklə, Qaradağ Sənaye Parkında gəmiqayırma fəaliyyəti ilə məşğul olan rezidentlər onlara malların və quruların idxalı üçün verilən təsdiqedici sənəd əsasında 5 il müddətinə ƏDV ödəməkdən azad edildi.

Göstərilən rezidentlər eyni zamanda podratçı tərəfindən malların təqdim edilməsi və/və ya xidmətlərin göstərilməsi zamanı ƏDV-ni 5 il müddətinə sıfır (0) dərəcə ilə ödəyəcəkdir.

Məcəlləyə edilmiş digər dəyişikliklə fiziki şəxslərin kənd təsərrüfatı torpaqları üzrə ödədiyi torpaq vergisi dövlət vergilərinə aid edildi.Bundan əlavə, aşağıdakı məhsulların idxalı və satışı ƏDV-dən azad edilib:

- *damazlıq heyvan idxalı və satışı, toxum və tinglərin idxal və satışı, mineral gübrələr, pestisidlərin idxalı, toxumların yetişdirilməsi, laboratoriya avadanlıqlarının, toxum, taxıl və quru paxlalı bitkilərin təmizlənməsi, çeşidlənməsi və ya kalibrlənməsi üçün maşınların idxalı və satışı;*
- *Kənd təsərrüfatı heyvanlarının və quşlarının profilkatikası ,diaqnostikası və müalicəsi üçün istifadə olunan baytarlıq preparatlarının idxalı, bilavasitə kənd təsərrüfatı təyinatlı suvarma və digər qurğuların, maşınların, avadanlıqların və texnikaların idxalı və satışı*

## Azərbaycan Respublikası vahid büdcə təsnifatına dəyişiklikər edildi

Nazirlər Kabinetinin 3 may 2016-cı il tarixli 181 nömrəli Qərarına əsasən büdcə gəlirləri eyni zamanda bina tikintisi sahəsində, idman mərc oyunları sahəsində, ticarət fəaliyyəti və eyni zamanda ictimai iaşə fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin ödədiyi sadələşdirilmiş vergilər hesabına formalaşır.

Qərar 7 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib

## Gömrük sahəsində islahatlar davam edir

AR Prezidentinin 4 mart 2016-cı il tarixli gömrük rəsmiləşdirilməsi qaydalarının sadələşdirilməsini nəzərdə tutan Fərmanına əlavə olaraq 21 may 2016-cı il tarixində *"Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları" ("Qaydalar")* təsdiq edilmişdir.

Qaydalar əsasən malların elektron qaydada risk qruplarına uyğun idxalı meyarlarını nəzərdə tutur. Belə ki, Qaydalarda gömrük sistemində malların buraxılış sistemlərinin onların risk

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

dərəcələrinə uyğun olaraq *yaşıl, mavi, sarı, qırmızı dəhlizlərlə* həyata keçirilməsi müəyyən olunmuşdur.

Qaydalarda göstərildiyi kimi, buraxılış sistemlərindən istifadə etmək üçün şəxslər ilk növbədə gömrük orqanlarına idxaldan ən azı 1 saat əvvəl elektron qaydada qeydiyyatın həyata keçirilməsi üçün *qısa idxal bəyannaməsi* göndərməlidirlər. Gömrük orqanları *bəyannamədə* idxal edilən məhsullarla bağlı göstərilən məlumatları təhlil etdikdən sonra həmin məhsulların idxalının risk dəhlizləri üzrə bölgüsünü aparırlar.

Belə ki, məhsulların *yaşıl dəhlizlə* idxalı zamanı onların və nəqliyyat vasitələrinin fiziki yoxlanması nəzərdə tutulmur (*dövlətin iqtisadi maraqlarına təhlükə yaradan hallar istisna olmaqla*). Digər dəhlizlərlə, yəni *mavi, sarı və qırmız dəhlizlərlə* idxal edilən məhsullara isə qanunvericiliklə müəyyən edilmiş gömrük nəzarəti tədbirləri tətbiq ediləcəkdir.

Bundan əlavə, müəyyən edilmiş risk qruplarına müvafiq olaraq malları idxal edən şəxslər də öz növbəsində *aşağı, orta və yüksək* risk qruplarına bölünür.

Qaydalarda göstərildiyi kimi, 22 may 2016-cı il tarixinədək son üç il ərzində malların ən azı bir dəfə idxalını həyata keçirən şəxslər *aşağı risk qrupuna*, bu müddət ərzində heç bir idxal əməliyyatı həyata keçirməyən idxalatçılar isə yüksək risk qrupuna aid ediləcəkdir.

Qaydalar 22 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib.

## Azərbaycan Respublikasının vətəndaşlığına qəbul, bərpa və xitam ilə bağlı qaydalar müəyyənləşdirildi

AR Prezidentinin 20 may 2016-cı il tarixli Fərmanına əsasən, vətəndaşlığa qəbul və ya bərpa olunmaq, vətəndaşlığa xitam verilməsi barədə müraciətlər müvafiq olaraq *Dövlət Miqrasiya Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti və Daxili İşlər Nazirliyi* tərəfindən qəbul edilir. Həmin orqanlardan toplanmış materialları Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edir.

Fərmanla, Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün aşağıdakılar əsas hesab edilir:

- *Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi*
- *xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi*
- *terror fəaliyyətində iştirak*
- *dini ekstremist fəaliyyətdə iştirak*
- *Azərbaycan Respublikasının vətəndaşlığına qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması.*

Göstərilən halların mövcud olduğu təqdirdə Dövlət Miqrasiya Xidməti vətəndaşlığın itirilməsi ilə bağlı məhkəmə qaydasında icraata başlayır. Bu məqsədlə Dövlət Miqrasiya Xidməti həmin şəxslərin *dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı əmlak öhdəliklərinin* olub-olmaması barədə 1 ay müddətində araşdırma apararaq məhkəməyə müraciət edir.

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

Fərmana əsasən, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikası *vətəndaşları 1 ay* müddətində bu barədə yazılı məlumatı Dövlət Miqrasiya Xidmətinə (*Azərbaycan Respublikasının ərazisində yaşayan vətəndaşlar üçün*) və Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə Xarici İşlər Nazirliyinə (*xarici dövlətlərdə yaşayan vətəndaşlar üçün*) elektron poçt vasitəsilə və ya şəxsən təqdim etməlidirlər.

Fərmanla eyni zamanda *Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilmək üçün ərizə-anketin* nümunəsi müəyyən edilmişdir.

Fərman 22 may 2016-cı il tarixindən etibarən qüvvəyə minib

## Konstitusiya Məhkəməsi Mülki Məcəllənin bir sıra maddələrini şərh etdi

AR Konstitusiya Məhkəməsi Plenumunun (“KM”) 29 mart 2016-cı il tarixli Qərarı ilə, Mülki Məcəllənin 228.5-ci maddəsində təsbit edilmiş *yaşayış binasının tərkib hissəsindən istifadə hüququ* maddəsi şərh edildi. Maddəyə əsasən, yaşayış binasının tərkib hissəsinin mülkiyyətçisi və onunla birgə yaşayan ailə üzvləri (əri, arvadı, valideynləri, uşaqları) həmin yaşayış sahəsindən bərabər istifadə hüquqlarına malikdirlər. Bununla yanaşı, maddədə göstərildiyi kimi mülkiyyətçinin ailə üzvlərinin yaşayış sahəsindən istifadə hüququ onların ailə münasibətlərinə xitam verildiyi halda da saxlanılır.

Yuxarıdakılara əsaslanaraq, KM *ailə üzvlərinin və digər şəxslərin yaşayış sahəsinin tərkib hissəsindən istifadə etməməsi halında* mülkiyyətçinin məhkəmə qaydasında kompensasiya ödəmədən həmin şəxslərin istifadə hüququna xitam verilməsini məsələsinə aydınlıq gətirdi.

Belə ki, KM Mülki Məcəllənin 262.2-ci maddəsinin müddəalarına əsaslanaraq, ailə üzvlərinin və digər şəxslərin yaşayış sahəsinə ehtiyacı aradan qalxdığı təqdirdə *(məsələn, digər daimi yaşayış sahəsinə könüllü surətdə köçməsi; ev və ya digər yaşayış sahəsi üzərində mülkiyyət hüququ əldə etməsi; nikaha daxil olaraq ər-arvadın evinə köçməsi və s.)* həmin şəxslərin yaşayış sahəsinin tərkib hissəsindən istifadə hüququna kompensasiya ödənilmədən xitam verilməsinin mümkün olmasını müəyyən etdi.

Qərara əsasən, yaşayış sahəsinin tərkib hissəsindən istifadə hüququnun həyata keçirilməməsi həmin hüququn xitamına birbaşa səbəb olmur. Belə ki, yalniz *uzun müddət ərzində və davamlı olaraq* bu hüquqdan könüllü istifadə edilməməsi göstərilən hüquqların xitamına əsas verə bilər.

Qərar 20 aprel 2016-cı il tarixindən etibarən qüvvəyə minib

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

**Əlaqə:**

**Vüqar Əliyev**
İdarəedici Partnyor

**Müşfiq Əliyev**
Direktor,
Vergi və Hüquq Departamentinin Rəhbəri

**Fərid İsayev**
Baş Menecer,
Hüquq Xidmətlərinin Rəhbəri

**KPMG Azerbaijan Limited**
Port Baku, 12-ci mərtəbə
Neftçilər prospekti, 153
AZ1010, Bakı şəhəri, Azərbaycan
Tel. +99412 404 8910 / 11
Faks +99412 404 8914
www.kpmg.az

Hazırkı məlumat ümumi səciyyə daşıyır və xüsusi bir fiziki və ya hüquqi şəxsin xüsusiyyətini xarakterizə etmir. Baxmayaraq ki, biz düzgün və zamanlı məlumat verməyə çalışırıq, biz təminat verə bilmərik ki, bu məlumat tərəfimizdən əldə edildiyi zaman düzgündür və gələcəkdə də düzgün olmağa davam edəcəkdir. Heç bir şəxs bu məlumatdan peşəkar təhlil olunmadan istifadə edə bilməz.

© 2016 KPMG Azerbaijan Limited şirkəti, Guernsey qanunvericiliyinə əsasən yaradılmış, Azərbaycan Respublikasındakı Nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən və KPMG International Cooperative (“KPMG International”), müstəqil üzv şirkətləri şəbəkəsinin üzvü olan, İsveçrə şirkətidir. Bütün hüquqlar qorunur.